www.seyidramin-az.blogspot.com

Seyid Ramin




# YAŞASIN ÖLMƏK!

P®AO – 2009

**RƏHMAN VƏ RƏHİM OLAN ALLAHIN ADI İLƏ**

Seyid Ramin
YAŞASIN ÖLMƏK!
Bakı - May 2009

Seriya: **P®AO KİTABXANASI**

Kitabın üz fotosu: **www.azerphoto.az**

Kitabın üz və arxa dizaynı: **Seyid Ramin**

Kitabın arxa fotosu: P®AO

Redaktorlar: **Əvəz Qurbanlı - şair, publisist.**
**Əsəd Cahangir – tənqidçi.**

Məsləhətçi: **Yusif Kərimov – yazıçı, publisist.**

Elektron əlaqə: **seyidramin@gmail.com**

Elektron ünvan: **www.seyidramin-az.blogspot.com**

**Müəlliflik hüquqları Seyid Raminə məxsusdur!**

Yazar Seyid Ramin Ağakərim oğlu Paşazadə-Musəvi əslən Masallı rayonunun Boradigah qəsəbəsindən olsa da 1988-ci ilin 22 iyul (milli mətbuat) günündə Bakı şəhərinin Yasamal rayonunda dünyaya gəlib.

2005-ci ildən orta məktəbi bitirdikdən sonra Bakı İslam Universitetinin "İslamşünaslıq" fakültəsinə daxil olub. 2005-ci ildən bədii ədəbiyyatla məşğul olur. Ədəbiyyata şeir yazmaqla gəlib. Daha sonra publisistikaya və nəsrə keçib. Bir sıra qəzetlərdə müstəqil yazar kimi fəaliyyət göstərib, digər kütləvi informasiya vasitələri ilə əməkdaşlıq edib və yazıları dərc olunub. Türk dilindən tərcümələr edir.

"YAŞASIN ÖLMƏK!" yazarın ilk kitabıdır. Kitabda yazarın müxtəlif vaxtlarda yazdığı miniatürlər, etüdlər, hayqular və sairə qısa şeirlər toplanmışdır.

Evlidir, iki otağı var...

Allah palçıqdan
insanı yaratdı.
İnsan da palçıqdan insan
yaratmaq istədi,
amma heykəl alındı.

~ ~ ~

Yerin damarları – Yollar.

~ ~ ~

Köhnəliyi bəyənməyən!
Yer kürəsində niyə yaşayırsan?!

~ ~ ~

Yenə bu il
həyatşünaslıq fənnindən
kəsilib, həyatda qaldım...

~ ~ ~

Bu qaranlıq yolu
həqiqət bilib
gözüyumulu getdim.
Maşın səsləri gəlməyə başladı.
Şeytan məni yoldan çıxartdı…

~ ~ ~

Siqaret tüstüsü
saxlayır fikrimi...

~ ~ ~

O, doğum evinin
qarşısından keçəndə
körpələrin ağlaşmalarından
elə bildi ki,
bura körpələr üçün
konservatoriyadır.

~ ~ ~

Yenə başına dönəndə
radara düşdüm.

~ ~ ~

Külək ayağını-ayağına keçirib
küçəmizdə "tütək" çalırdı.
Həzin musiqinin sədası altında
salafan torbalar, sarı yarpaqlar,
konfet kağızları
kobra kimi rəqs edirdi...
Hərdən bu rəqsə
toz-torpaq da qoşulurdu...

~ ~ ~

Öləndə şəklimi çəkən olsaydı...
Başdaşıma vurardım.

~ ~ ~

Balıq başdan iylənirsə,
bütün bədəni

başdan ibarət olan
balıqların vay halına!

~ ~ ~

Heykəli
onun yerini vermir...

~ ~ ~

Əvvəllər bizim küçələrdə
çadrasız qadın görəndə
təəccüblənərdilər.
İndi çadralı qadın görəndə...

~ ~ ~

Mən də dilənçiyəm,
söz dilənirəm.

~ ~ ~

Hər axşam mətbəxin
işıqın yandırarkən
tarakanlar qaçıb gizlənir.
Artıq onlar da məni
görməkdən bezib.

~ ~ ~

İndi qaşınan yerdən
qan yerinə neft çıxır.

~ ~ ~

Bu müsəlman şəhərində
müsəlmanları yadıma
bir məscidlər salır,
bir də hicablılar...

~ ~ ~

Bunu da bil ki,
mən ürəyimi yalnız
sənçün açmışdım.
“Qanunsuzdur”
deyib bağladılar.

~ ~ ~

Xəyanət:
Cazibədar qadın.
Şeytanın ipi.
Göz yaşları.
İntihar.

~ ~ ~

Son zamanlar mavi ekrandan
mavi insanlar görünür.

~ ~ ~

Ay müsəlman balası,
rus qızı Zinayla
çoxmu zina etdin?

~ ~ ~

Axşamlar qanımı
ağcaqanadlar sovurur,
səhərlər adamlar.

~ ~ ~

Bağışlayın,
çərçivəsiz çərçivəniz olmaz?
Şəkilçün istəyirəm...

~ ~ ~

Müharibədə yarımı
itirəndən sonra,
mənə yarım “yarım” dedimi?

~ ~ ~

Meşə çaqqalsız olmur.
Amma bizim meşədə
heç çaqqal da yoxdur.

~ ~ ~

Ara,
öz aravızdı,
aravızı da vurdular.
Qaldız arasız.

~ ~ ~

Məktəb yazıb mənə
göndərmisən ki,

“sənsizliyin mənə
qaldı yadigar”.
Sən də bil ki,
bir bu məktubdan başqa,
səndən mənə
heç nə qaldı yadigar.

~ ~ ~

Neft bu şəhəri
üzü qara elədi.

~ ~ ~

Bədbəxt olmuş xoşbəxtdən,
xoşbəxt olmuş bədbəxtə...

~ ~ ~

Göydən yağan yağış da,
bəlkə buludların göz yaşlarıdı.

~ ~ ~

Şam əriyib,
lap şama döndü...

~ ~ ~

Sükutun səsindən
az qala qulağım kar oldu.
Söndür onu!

~ ~ ~

Sərçələr də artıq
yuxudan oyanıb.
Gərnəşə-gərnəşə
və cikkildəşə-cikkildəşə
təmiz havada
sınaq uçuşları
həyata keçirdirlər.

~ ~ ~

Bundan sonra,
sevməyi tərgidib,
tərgitməyi sevəcəm.

~ ~ ~

Evlənmədik.
Ancaq səndən ayrılıq adlı
bir bic uşağımız oldu.
Qaldı mənim boynumda.

~ ~ ~

Yenə harda itib-batdın,
mənə atdın, ay günəş?!

~ ~ ~

Kiməsə desən öl!,
deyər "Allah göstərməsin!".
Bəs kim göstərsin?!

~ ~ ~

Gəlin hamımız
bir kəlməlik susaq!
Allah xətrinə.

~ ~ ~

İndi gözlərim yol çəkir,
bu dəfə ayrılıqa tərəf...

~ ~ ~

Axşam yaxınlıqdakı
metrodan gələn
qatarların ayaq səsləri
artıq başıma
düşməyə başlayıb.

~ ~ ~

Zibildən çıxıb,
zibilə düşmək,
nə zibilmiş...

~ ~ ~

Ən nəhayət,
xəyanət etdiyin qadına
bir sevgi borcun var...

~ ~ ~

Cəmi iki üzüm varkən,
necə üçüzlü olum?

~ ~ ~

İlk məhəbbət:
Tükənməz xəyallar.
Küsən iştaha.
Sevgi məktubları.
Gizli görüşlər.

~ ~ ~

Yerə deyin
(Y)ayın atıb, oxun gizlətməsin.
Yoxsa...

~ ~ ~

Amma sən məndən
ayrılandan sonra
heç mənə
bir xəbər də etmədin.
Zəng vurub,
bir kəlmə söz də demədin,
bir zəng vurub
susmadın da.

~ ~ ~

Ağaclar - Özlərinin başdaşı.
Şairlər - sözlərinin...

~ ~ ~

Avtobusa minək,

avtobusdakılara?

~ ~ ~

İndi yalnız pəncərələr
taybatay ürəyini açıb mənə.

~ ~ ~

Arada bir
həzin külək də əsir
və havadan ayrılıq iyi gəlir.

~ ~ ~

Diqqət, diqqət!
Danışır, radio lal fm...

~ ~ ~

Meşədəyəm.
Alma ağacına baxıram.
Ağacdakı  bütün almalar
sanki intihar edib.
Bəlkə də bunların hamısı
dünyaya ölü gələnlərdi.
Daha doğrusu
intihar edib gələnlər…

~ ~ ~

Yeni vəzifə aldım:
Avaraçılıq idarəsində.

~ ~ ~

Yaşasın ölmək və
ölsün yaşamaq.

~ ~ ~

İmtahan vaxtı dediyim
ən dahiyanə söz:
Kəsir, adamı kəsir.

~ ~ ~

Bu dəqiqə elə
çaşıb qalmışam,
bilmirəm hayana
getməyim gəlir.
Gedə-gedə
dayanmağım qayıdır,
dayana-dayana
getməyim gəlir.

~ ~ ~

O ölkənin vətəndaşı ol ki,
kosmosdan baxanda
sərhədləri görsənsin.

~ ~ ~

Bəzi acların ürəyi
döyünməkdən
kilsə zənginə döndü.
Çaldılar...

~ ~ ~

Mənə sənsizlik də xoşdur.
Ən azından sənsizlikdə də
bir “sən” var.

~ ~ ~

Polis gəldi,
uçdu getdi “quşlar”...

~ ~ ~

Bu şəhərdə
“Görüş” kafesi nə çox.
Bircə “Ayrılıq” kafesi yox...

~ ~ ~

Niyə insan
dünyaya gələndə
və gedəndə onu
ağ əskiyə bükürlər?!
Bu dünyada göy əskiyə?!

~ ~ ~

Güzgüdəyəm,
güzgü də gözlərimdə.

~ ~ ~

Səni özümdən

yaxşı tanıyırdım.
Səni səndən
yaxşı tanıyırdım.
Sənə inanırdım amma sən
bütün bunları bilmədin.
Bəlkə heç özün də bilmədin ki,
niyə bilmədin...

~ ~ ~

Əvvəl gözüm özümdən
su içmirdi.
İndi özüm gözümdən...

~ ~ ~

Məhəbbət.
Telefon danışıqları.
Sevgi mesajları.
Bitməyən arzular.
Yarım gizli görüşlər.

~ ~ ~

Ən böyük arzum budur:
Arzum böyük olmasın.

~ ~ ~

Toxluqdan ölənin
aclıqdan öləndən
mütləq xəbəri olacaq...

~ ~ ~

O qədər
“Problem olmaz” dedim,
olmaz problemim oldu...

~ ~ ~

Hətta divardakı saat da yatıb,
təkcə məndən başqa.

~ ~ ~

Yazıq, bu dünyaya
başıaşağı gəlib,
“başıaşağı” getdi.

~ ~ ~

Sonuncu məktubunla
bu axşam həyətdə
babam od qaladı.
Hər şey bitdi!

~ ~ ~

Burda heç nə
dəyişməsə də
hər şey dəyişdi.

~ ~ ~

Gəzirəm mən yenə tənha
bu qaranlıq küçələrdə.
Mənə həmdəm ola bilmir,

bu qaranlıq küçələr də.

~ ~ ~

Sevgilimə söz verdim,
sonra almadım,
ona bağışladım.

~ ~ ~

Burda
soyuqdan ölməkdənsə
istidən ölmək yaxşıdır.

~ ~ ~

“Za Karabax” arağını içmə!
Qarabağı unudarsan.

~ ~ ~

Kəndimizdə
günü gündən yeniləşib
inkişaf edən şey varsa
o da qəbiristanlıqdır.

~ ~ ~

Qanunlar qüvvəyə minməkdən,
qüvvələr qanuna minir.

~ ~ ~

Sən gedəndən sonra

“sən gedəndən sonra”nı yazdım...

~ ~ ~

Ənəlhəqq:
Mənsur Həllac.
Eşq.
Dar ağacı.
Ənəlhəqq.

~ ~ ~

Qul olmayan, azad olan,
əvvəl-axır azadlığın quludur.

~ ~ ~

İgid ölər,
a(rva)dı qalar.

~ ~ ~

Bu il bizim kənddə
görünməmiş hadisə baş verdi
və onu heç kim görmədi.

~ ~ ~

Doğrusu mən
elə bilirdim əvvəl
həyat ağ-qara olub.
Ta ki, rəngli televizorlar
çıxanacan...

~ ~ ~

Gözlərim həyatımı
lentə köçürür.
Premyeraya birinci
özüm baxacam.
Həyatımın filminə.

~ ~ ~

Evimi yıxdılar,
yerində ev tikdilər.

~ ~ ~

Haçansa alnımın
tərini siləndə
alın yazım silinib.

~ ~ ~

Şairlər uşaq kimi hələ də
söz oyunu oynayır.
Utanmazlar.

~ ~ ~

Tələsərkən
həyatının yollarında
taksiyə minib
getmək istəyən
mütləq tıxaca düşəcək.

~ ~ ~

“Qəbiristanlıq” filmində
hamı stopkadrda...

~ ~ ~

Göydən göyə
sürüşən ulduzlar...

~ ~ ~

Görəsən haçanacan
ulduzlar bizim başımızın
üstündə dayanacaq...

~ ~ ~

Yer fırlananda
başın gicəllənmir ki?

~ ~ ~

Çox atdanıb-düşmə.
Birdən sənin ağırlığına
yer tab gətirə bilmədi...

~ ~ ~

Bu şəhər küləklərin idi,
indi başqalarınındı.

~ ~ ~

Balacanı yatızdırmaq çətindir,

böyükü oyatmaq.

~ ~ ~

Əvvəl ondan ayrıldım,
sonra onun ayrılığından.

~ ~ ~

Günahlarını yumağa
su tapmayanlar,
sizə şad xəbər var.
Gözünüz aydın!
Antraktidada buzlaqlar
artıq başlayıb ərimәyə.

~ ~ ~

Bəlkə də bu küçələrdə
gecələr külək
qorxusundan əsir.

~ ~ ~

Mən hər şeyimdən keçib,
sənə heç nə demədim...

~ ~ ~

Sükutu,
elə sükutun özü pozur.

~ ~ ~

İtən sürücüyə
əşyalar cavabdeh deyil.

~ ~ ~

Başımı qatdılar mənim,
bir də baxıb gördüm yoxam.
Bircə ondan qorxmuram ki,
mən varlıqdan yoxa çıxam.

~ ~ ~

Allah, sənin yadına
yalnız pis gündə düşdü?